**Xəzər dənizinin (gölünün) Şabran rayon ərazisindəki sahilyanı ərazilərində çimərliklər salınması nəzərdə tutulan ərazilərə dair**

# MƏLUMATLAR

**Şabran - 2023**

Azərbaycan Respublikası Prezidentinin 30 mart 2017-ci il tarixli, 2784 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında çimərlik turiziminin inkişafına dair 2017-2020-ci illər üçün Tədbirlər Planı”nın 6.1-ci bəndində “Azərbaycan Respublikasında çimərlik turiziminin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli, 2295 nömrəli Sərəncamının 10-cu bəndinin icrası ilə əlaqədar yaradılacaq turizim reysterində və müvafiq informasiya saytında çimərlik turizminə dair ayrıca bölmənin olması, çimərliklərin xəritələri və onlar barədə ətraflı məlumatların bu bölmədə yerləşdirilməsi və çimərlik mövsümü ilə bağlı elektron bülletenlərin hazırlanması tapşırılmışdır. Buna Şabran rayonu üzrə mümkün müvafiq məlumatlar hazırlanmışdır.

2014-cü il

# Azərbaycan Respublikası
# Xızı -Xaçmaz Turizм və Rекreasiya Zonasının
# Şabran rayonu üzrə yerquruluşu xəritəsi

MIQYAS 1: 50 000




| EKSPLİKASİYA | | |
|---|---|---|
| Sıra sayı | Torpaq sahələrinin növü | Sahəsi ha |
| I | Dövlət mülkiyyətində olan torpaqlar | 9960.79 |
| | | 30.06 |
| II | Bələdiyyə mülkiyyətində olan torpaqlar | 11625.36 |
| 1 | Bələdiyyənin ehtiyat fonduna ayrılan əkin sahəsi | 240.25 |
| 2 | Kəndin gələcək inkişafına ayrılan əkin sahəsi | 101.53 |
| 3 | Əkin | 688.35 |
| 4 | Örüş | 1965.15 |
| 5 | İctimai tikinti | 400.19 |
| 6 | Qəbiristanlıq | 82.84 |
| 7 | Bataqlıq | 569.10 |
| 8 | Qamışlıq | 606.10 |
| 9 | Qumluq | 882.95 |
| 10 | Yararsız | 873.54 |
| 11 | Yollar | 851.34 |
| 12 | Kolluq | 428.39 |
| 13 | Şoran | 599.09 |
| 14 | Meşə zolağı | 279.83 |
| 15 | Göllər | 137.24 |
| 16 | Daşlı sahə | 584.03 |
| 17 | Arxlar | 236.29 |
| 18 | Kənd altı sahə | 306.05 |
| 19 | Sair torpaq sahələri | 1495.29 |
| III | Xüsusi mülkiyyətdə olan torpaqlar | 6561.15 |
| IV | Xüsusi təyinatlı | 386.64 |
| | Cəmi sərhəd daxilində | 28533.94 |
| | Turizм və rекreasiya zonaları elan olunan ərazi | 28833.78 |

Şabran rayonu şərqdən 24 km məsafədə Xəzər dənizi ilə sərhəddədir.

| Kəndin adı | Təsərüfatların sayı | Əhalinin sayı |
|---|---|---|
| Çölquşçu | 208 | 850 |
| Çayqaraqaşlı | 140 | 541 |
| Hacıqaraqaşlı | 105 | 344 |
| Xəlilli | 69 | 288 |
| Liman | 30 | 121 |
| Sarvan | 45 | 143 |

Şabran rayonu Xəzər dənizinin sahilyanı ərazisinin uzunluğu 24 kilometrdən çoxdur. Dənizin mühafizə zonasından heç bir sahibkarlıq subyektinə torpaq sahəsi ayrılmamış, ev, obyekt inşa olunmamışdır. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 20 iyun tarixli 773 nömrəli fərmanı ilə təsdiq edilmiş tikinti və rekreasiya zonaları haqqında nümunəvi əsasnaməyə uyğun olaraq Şabran rayonunda 25833,78 hektar turizm və rekreasiya zonaları yaradılmışdır.

## Qərargah

“Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 3.7.2-ci və 3.7.3-cü bəndlərinə əsasən Şabran Rayon İcra Hakimiyyəti başçısının 2018-ci il 05 sentyabr tarixli 104 nömrəli sərəncamı ilə Şabran rayonunun Xəzər dənizinin sahilboyu ərazisində ekoloji vəziyyətin yaxşılaşdırılması, dəniz sularının və sahilboyu ərazilərin çirklənməsinin qarşısının alınması məqsədi ilə monitorinqlər aparılmasını, mövcud vəziyyəti təhlil edərək məişət tullantılarının daşınmasının təşkil edilməsini, habelə yaşayış massivlərində, sənaye obyektlərində və xidmət sahələrində formalaşan istehsalat və məişət-fekal sularının təmizlənmədən dənizə axıdılmasının qarşısının alınması ilə əlaqədar təkliflərin hazırlanmasını və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi üçün Şabran rayon İcra Hakimiyyəti başçısı yanında aidiyyəti qurumların rəhbərlərinin də daxil olduğu qərargah yaradılmışdır.

Qərargah tərəfindən mütəmadi olaraq Şabran rayonunun Xəzər dənizinin sahilboyu ərazisində, Şabrançay və Dəvəçiçay çaylarının mühafizə zonalarında monitorinqlər keçirilmişdir. Bundan sonra mövcud vəziyyət təhlil edilərək məişət tullantılarının daşınmasının təşkil edilməsi, habelə yaşayış massivlərində, sənaye obyektlərində və xidmət sahələrində formalaşan istehsalat və məişət-fekal sularının təmizlənmədən dənizə axıdılmasının qarşısının alınması ilə əlaqədar təkliflər hazırlanmış və təxirəsalınmaz tədbirlər hazırlanır.

Şabran rayonunun Xəzər dənizinin sahilboyu ərazisində iməcliklər təşkil olunmuş və məişət tullantıları yığılaraq zərərsizləşdirilmişdir. Rayon İcra Hakimiyyəti başçısının Şabran şəhər, Çölquşçu, Pirəmsən, Şahnəzərli və Ağalıq inzibati ərazi dairələri üzrə nümayəndələrinə və müvafiq bələdiyyə sədrlərinə Xəzər dənizinin sahilboyu ərazisinin çirklənməsinin qarşısının alınması üçün əhali arasında maarifləndirmə tədbirlərinin gücləndirilməsi, məişət tullantılarının vaxtaşırı olaraq yığılıb daşınması üçün tədbirlərin davam etdirilməsi barədə tapşırıqlar verilmişdir.

Xəzər dənizinin sahilboyu ərazilərinin çirklənməsinin qarşısının alınması üçün aidiyyəti qurumlara və sahibkarlara rəsmi məktublar ünvanlanmışdır.

**Xəzər dənizinin tullantılarla çirkləndirilməsi üzrə Regional Fəaliyyət Planı”**

**layihəsi ilə bağlı hazırlanmış təkliflər**

Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası” (Tehran Konvensiyası) çərçivəsində “Xəzər dənizinin tullantılarla çirkləndirilməsi üzrə Regional Fəaliyyət Planı” layihəsi tərəfimizdən aidiyyəti vəzifəli şəxslərin iştirakı ilə öyrənilmişdir. “Xəzər dənizinin tullantılarla çirkləndirilməsi üzrə Regional Fəaliyyət Planı” layihəsini dəstəkləyir və sorğu üzrə məlumatlar Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göndərilmişdir.

- Xəzər dənizi sahillərində yerləşən ölkələrin ərazisində birdəfəlik plastik qablardan istifadənin mərhələlərlə tamamilə qadağan edilməsi;
-plastik materiallardan hazırlanmış qablaşdırma avadanlıqlarının ağac materialları, keramika, şüşə və sairlə əvəz edilməsi;
- ağac, keramika, şüşə və sair materiallardan qablaşdırma avadanlıqları istehsal edən müəssisələrə müxtəlif stimullaşdırıcı köməkliklərin edilməsi;
- Xəzər dənizinin kənarlarında yaşıllıq zolaqlarının salınması;
- əhali ilə maarifləndirici tədbirlərin həyata keçirilməsi;

Müvafiq təkliflər Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göndərilmişdir.